# BƏYDİLİLƏR



*İsmayıl KAZIMOV,*
*professor*
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*

Mahmud Kaşğarinin «Divan»ından Orta Asiyada Bəydili boyunun (Bektili: MK, I, 56) varlığı bilinməkdədir. XI əsrin ortalarında böyük türkoloq və tarixçi Mahmud Kaşğarlı öz dövrünün ensiklopediyası olan «Divanü Lığat it-Türk» adlı əsərində oğuzların türkmən olduğundan bəhs etmişdir [1, 55].

Fərqli mənbələrdə bəydililər barədə fərqli məlumatlar verilmişdir. Oğuzlar 24 boydan meydana gəlmişdir ki, Bəydili də həmin tayfalardan biridir. Bəydililər bozoklardandır. Onlar tarixdə Oğuz ordusunun ən güclü və döyüşkən, şücaətli qolunu təşkil etmişlər. Döyüşdə həmişə fərqlənmişlər. «Bəydili savaşçıları» ifadəsi o zaman Osmanlı dövlətinin təşkilində geniş yayılmışdır. 1071-ci ildə Malazgird Meydan müharibəsinin qələbə ilə başa çatmasında ən böyük rolu Bəydili türkləri oynamışdır. Bəydili əsgərləri bu qələbədə tarix səhnəsində igidlikləri ilə qalmışlar.

Bəydililər oğuzlardır. Bozoklar böyük oğuzlardır. Bozok deyilən etnonim oğuz türkmənlərinin 12 boyundan biridir. Bozoklar oğuzların sağ qanadındandır. Boz sözü rəng mənasında deyil, «tayfa», «tirə», «xalq» anlamındakı qədim türk sözü olan b o d (bodun) sözünün sonradan formalaşan fonetik görüntüsüdür (bu barədə bozacı etnoniminə bax) [2,79]. Bəydililər də böyük oğuzların sağ qoluna daxildir. Bozoklar tarixdə Hun xan, Ya xan, Yıldız xan olmaqla üç yerə bölünmüşlər. Yıldız xana mənsub boylardan biri Avşarlar, biri Karkın, biri Çarıklı, biri isə Bəydililər olmuşlar. Oğuzlar hər boyunun öz damğasını müəyyənləşdirmişlər: Beg-Tili damğası. Bu damğa bəydililərin hissini, duyğusunu, kəlmələrini xalqına çatdırmasından ötrü bir vasitədir.

Çoxlu ərazi adı bəydililərin adı ilə bağlıdır: Bəydili kəndləri, Bəydili yörəsi, Bəydili qayası, Bəydili güneyi, Bəydili yeri, Bəydili arxı və s.

Mənbələr təsdiq edir ki, Bəydili boyu ovçuluq, heyandarlıq, əkinçiliklə məşğul olublar, at, qoyun, dəvə, sığır kimi heyvanları saxlayıblar. Onların atlı orduları çox güclü olub. At üstündə savaşlarda qələbə qazanıblar. At arabaları düzəldərək, həm daşıma işlərində, həm də yarışda, istifadə etmişlər. Onların bəslədiyi atlara «Tanrı Atı» deyiblər və bu mövzuda şeirlər yazıblar.

Qürbətdə yaşayan bir bəydili qızının göndərdiyi şeirdə deyilir:

Beni verdiler dünyanın bir köşesine.
Çok uzaktaki yabancı bektili beyinek
Bunlar yuvarlak keçe otağda yaşıyorlar.
Et yiyip, ayran, kımız içiyorlar.
Doğduğum yeri çok özledim.
Kuğu gibi kanadım olsa
Kendi ülkeme uçup gitsem.

Tarixi bəydililərin yaşadığı ərazilərdə dağılmış, məhv olmuş qəbiristanlıqlar və onların istifadə etdiyi avadanlıqlar, xüsusən də döyüş, silah qalıntıları qalmaqdadır.

M. ö. 60-cı illərdə bəydililər Roma imperatorluğunun təsiri altında qalmışlar.

Bəydililərin bir bölümü başqa oğuz boyları ilə birlikdə Səlcuqlu dövlətinin qurulmasında və Anadolunun işğalında iştirak etmişlər.

Mənbələrdə Bəydili adı yazılış baxımdan fərqli olaraq Beqtili, Bağtili, Beydilli biçimlərində işlənmişdir.

Mahmud Kaşğari bu adın «sözü dəyərli, böyüklər kimi əziz» mənaya malik olduğunu göstərmişdir.

Bəydililər türk dünyasının bir çox ərazilərinə səpələnmişlər. Türkiyədə irili-xırdalı 24 Bəydili kəndi (köyü) vardır. Göründüyü kimi, Bəydili boyu kənd adına transformasiya olunmuşdur (çevrilmişdir) Daha doğrusu, bu boy kənd adlarının yaranmasında ən fəal iştirak edən onomastik vahidlərdən olmuşdur. Kəndlərin adında fərqli fonetik cəhətlər özünü göstərməkdədir (Bəydili, Bəydilli, Badilli, Begdilli, Begdili, Bəydeli, Bəydilü və s.).

Bəydililərin xüsusi seçilən şivəsi vardır. Bu şivəyə Türkiyənin Yöresel bölgəsi şivəsinin təsiri çox olmuşdur. Daha doğrusu, bəydililərin ləhcəsində dilin müəyyən səviyyəllərində müəyyən dəyişmələr özünü göstərmişdir.

İndi Türkiyədə mövcud Bəydili adları mənbələrdə göstərildiyi kimi belədir: Beydili (Ankara, Nallıhan), Beydili (Gorum, Gorum Merkez), Beydili (Gorum, Bayat), Beydili (Gazianter, Araban), Beydili (Sivas, Hafık), Beydili (Sivas, Kangal), Beydili (Mersin, Gülnar), Beydili (İsparta, Sütçüler), Beydili (Karabuk, Ovacık), Beydili (Karaman, Karaman Merkez), Beydili (Denizli, Çivril).

Bəydililər öz tarixi, dili və ənənələrini qoruyan boylardan olmuşlar. Onlar XII əsrin ortalarında Xorasanda Səlçuqlu hökmdarı Sultan Səncəri əsir almış, daha sonra Monqol istilasından qaçaraq (XIII əsrdə), Azərbaycan və Doğu Anadoluya köç etmişlər. Monqol istilasının yayılması ilə türkmənlər ilə birlikdə Suriyaya gedərək yeni qurulan Məmluk dövlətinə sığınmışlar. XIV əsrdə Bəydili boyuna, Gazzeden Kozan və Diyarbakırda uzanan bölgələrdə yaşayan türkmən boyları arasında rast gəlinməkdədir. Monqol zülmünün aradan qalxması ilə (XIV əsr) hərəkətə keçən Suriya türkmənləri ilə birlikdə Bəydili boyunun əksəriyyəti bir hissəsi (bölümü) Suriyadan ayrılaraq Güney və Doğu Anadoluya və İrana getmiş, Dulkadiroğulları, Ramazanoğulları bəyliklərinin, Ağqoyunlu və Səfəvi dövlətlərinin qurulması və inkişafında mühüm rol oynamışlar.

Bəydilli boyu Azərbaycan türklərinin, Anadolu türklərinin, İraq və Suriya türklərinin, Türkmənlərin etnogenezində iştirak etmişdir.



Bəzi mənbələrdə göstərilir ki, Bəydilli kəndinin adı Şahsevən tayfaları ilə əlaqədar yaranmışdır. Belə ki, Şahsevən tayfalarından birinin adı Bəydilli olub və bu tayfa indi Türkiyə ərazisindən XVI yüzildə Ərdəbil bölgəsinə gələrək məskunlaşıb. Başqa Şahsevən tayfaları kimi onlar qışı Muğan düzündə, yayı isə Savalan dağı ətəklərində keçirməklə köçəri həyat sürmüşlər. XIX yüzilin axırlarında İran ilə sərhəddə köçəri Şahsevən tayfalarının hərəkətlərini izləmək üçün Biləsuvara göndərilən Oqranoviç yazır ki, Şahsevənlərin ilk əcdadı sayılan Yunsur Paşanın XVI yüzildə altı oğlundan biri olan Sanxan bəyin oğullarından birinin adı Bəydili olmuşdur [3, 59].

Tədqiqatçıların fikrincə, Muğan ərazisində Anadoludan köçüb gələn Bəydili tayfası başqa İnallu tayfası kimi ayrıca bir tayfa olub və Yunsur Paşa ilə bərabər Muğan və Ərdəbil arasında məskunlaşıblar. Bəydili və İnallu tayfaları bu mənada Yunsur paşa ilə buralara Türkiyədən köçüb gəlmədilər. Onların bir sıra oymaqları bəllidir:

Qurd bəyin qrupu: Taleş Mikelli, Xələfli, Muğanlı, Udulu, Moradlı, Zərgər və s.

İnallu: Pir-Evatlu, Kələş, Kor-Abbaslu, Geyikli, Yurtçı, Dursun-Xocalu.

Bəydili: Acırlı, Haccı-Khoşallu, Yeddi Oymaq, Arabli, Çaxırlu, Qobadlu [3, 61].

Göründüyü kimi, tarixçilər Şahsevən tayfalarından biri olan bəydililərin mənşəyi barədə fərqli fikirlər söyləyiblər. Amma qaynaqlar bir-birindən fərqlənsə də, həmin tayfanın da Anadoludan köç etməsi faktdır.

Bəydililər XVI yüzildə Səfəvilər dövlətinin təşkilində və onun idarə olunmasında mühüm önəmə malik olan Şamlu tayfaları içərisindən bir çox tanınmış şəxsiyyətlərinə görə fərqlənmişlər. I Şah Abbasın zamanında Bəydililərin bir hissəsi Girman və Şiraza köçmüşlər.

Bəydililərin Qədirli, Qubadlu, Ərəblu, Ulaşlı, Xəlfəli, Tatalı, Eyvazılılar kimi oymaqlarının olması qeyd edilir.

Bəydililərin əsas məşğuliyyət sahələrindən biri kəhriz çəkmə, suvarma kanallarının çəkilişində fəal iştirak etmələridir. Onlar Biləsuvar zonasında indi Əzizbəyovun adı ilə adlanan kanalın çəkilişində iştirak etmişlər. Bolqarçayın ərsəyə gəlməsindəki zəhmətləri isə inkaredilməzdir.

Bu tayfanın adı ilə əlaqədar Türkiyədə bir çox təxəllüslər işlədilir: Esra Emrullah Beydili, Emre Beydili, Emrah Beydili, Beydili Taş İş Veren.

Ədəbiyyat adamı Cəlal Məmmədov da Bəydilli təxəllüsü ilə tanınmışdır (Bax: Cəlal Bəydili. Hamımız tənhayıq... "Ədəbiyyat" qəzeti)

Bəydililər orta əsrlərdə başqa türk tayfaları ilə birlikdə Orta Asiyadan Azərbaycana və Yaxın Şərq ölkələrinə də gəlmişlər. Azərbaycanda qalan bəydililər öz adlarını olduğu kimi saxlamışlar. Su təsərrüfatı, heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar.

Bir çox araşdırıcılar (İ.Şopen və b.) bəydililəri Kəngərli (Kəngərlər) tayfasının qolu sayırlar. Şərur rayonunun Qarabağlar kəndində (Naxçıvan MR) bəydililərin hazırda bir məhəllədə kompleks yaşamaları barədə məlumlar vardır.

Bəydilli adlı kənd Azərbaycan Respublikasının Biləsuvar rayonunun inzibati ərazi vahidini təşkil edir. Bu kənd həmin rayonun şimal-qərb istiqamətində yerləşir.

Biləsuvarda bir neçə kəndi birləşdirən avtomobil yolunun adı Zəhmətabad-Bəydili adlanır.

Bəydili Salyan rayonunda da kənd adıdır. «Azərbaycan toponimlərinin ensiklopedik lüğəti»ndə Salyan rayonunun Sarvan inzibati ərazisindəki Bəydili kəndi haqqında belə bir məlumat verilmişdir: Bala Kür çayının sahilində. Tam adı Puta Bəydili («Puta ərazisində yaşayan bəydililər»). Çox vaxt Bəydilli variantında da yazıya alınmışdır [4, 23].

Yevlax rayonunda Bəydili adlı oykonim mövcuddur. «Yevlax sənədlərdə və yaddaşlarda», Bakı, 2001: s.80-81 (Vidadi İsayev) kitabda oxuyuruq: «Bəzən Bəydili toponimini sözün əvvəlindəki bəy sözü ilə əlaqədar titul bildirən terminlərdə oronimlərin birləşməsindən əmələ gələn toponimik qrupa aid edirlər. Əslində isə Bəydili X-XIII əsrlərdə Azərbaycana gəlmiş səlcuq türk-oğuz tayfalarından biri olmuşdur. Bu kimi tayfalar Azərbaycana gələndə burada Azərbaycan xalqı, Azərbaycan dili vardı.

Bəydili adının mənası barədə Mahmud Kaşğari, Rəşidəddin, Yazıçıoğlu, Salar Baba, Abulqazi, Berezin, Kononov və başqaları müəyyən fikirlər söyləmişlər. «Yaşlıların sözünə hörmət edən» (Rəşidəddin), «mülayim dilli» (Salar Baba), «sözü hörmətli və dövlətli» (Abılqazi), «bəylərin hörmətli sözü» (Yazıçı oğlu), «böyüklər kimi hörmətli» (İ.Berezin) «Salnamələr toplusu»nda «böyük insanların dili kimi ehtiram edilən» və s.

Türkmən dilçisi Soltanşa Atanıyazov yazır ki, bekdili – «beqler uruqına deqişli il» mənasındadır. Adın quruluşu: beq, bek+ti+li formalarından ibarətdir.

M.Maxpirov –lı şəkilçisindən bəhs edərkən Begtili adını begti+li hissələrinə ayırır (o cümlədən, Qang+li), burada etnoqrafik mənsubiyyətin mövcudluğunu nəzərə çatdırır [5, 118].

Ədəbiyyatçı alim Axmet Bekmıradovun fikrincə, bu adın əsli «bek dilli» yəni «sirr saxlayan» mənasındadır [2, 70].

Bəzi mənbələrdə bəydililərin şamlılardan olduğu qeyd olunur. Şamlılar İranda çoxluq təşkil edir və mənsəb sahibdirlər.

Rəvayətə görə, bəydili boyunun bəyi İskanbaşı Firuz bəy (Feruz) bu fəna yerlərdə - yandırıcı Rəqqa çöllərində yaşamağa dəymız deyərək, bəzi obalarla birlikdə Əcəmə – İrana köçmüşlər.

İranda onlar türk əsilzadələri çərgəsinə daxil edilərək, yüksək vəzifələrlə təmin edilmişlər.

*(Davamı 16-cı səhifədə)*

# BƏYDİLİLƏR

*(Əvvəli 13-cü səhifədə)*

Bəydililər və başqa türk oymaqları sonralar dövlət tərəfindən sürgün yeri olaraq qəbul edilən Rəqqa bölgəsində yalnız susuzluq və qovurucu istilərlə deyil, ərəb tayfaları ilə mübarizə aparmaq məcburiyyətində qalmışlar. Vəhşi ərəb qəbilələrinə qarşı bəydililərin igidliklə mübarizə aparması mənbələrdə öz əksini tapa bilmişdir.

Mənbələr 1764-cü ildə bəydililərin 12 000 çadır olduğu yazırlar. Bəydililər Abbas Paşaya məğlub olurlar. Bəydililərin şeirlərində onların həyat və mübarizə dolu tarixi tərənnüm olunur. Faruk Sümərin bir şeirndə bu məğlubiyyət təsvir olunur:

Gözüm yaşı sinələrə töküldü,
Dağıldı əşirətim, bəndim söküldü,
Dağıtdın Gülabı, sən Abbas Paşa.

Bəydililər məğlub olduqlarını görərək, Gülabı tərk edərək dağılırlar. XIX yüzildə baş verən bu hadisə Rəqqanı tərk edən bəydililərin əsas bir hissəsinin Antəbin cənub yörəsinə yerləşdiklərini göstərirlər. Onlardan altı obanın kəndləri Suriya torpaqlarında məskunlaşırlar. Bəydililər oturaq həyata keçirlər.

Boz ulus. Arasındakı bəydili qolunun Şimali Suriyada yaşayan ana bəydili boyundan ayrılmış bir oymaq olduğu mənbələrdə göstərilir. Qanuni dövründəki boz ulus arasında yaşayan bəydili oymağı 200 vergi evi qədərdir. II Səlim za-manında bu oymaq daha güclü idi [6, 448].

Çin mənbələrində bəydililərin özlərinə xas damğaları, dili və yazıları olduğu bildirilir. Bu dil Türk dilinə oxşar bir dil olmuşdur. Bəydili dilində məktubların yazılması haqqında da mənbələrdə bəzi məlumatlara təsadüf olunur. «Ksik» kurğanından əldə edilən iki sətirlik bir mətndə bəydililərə xas sözlər vardır. Yazı formaca Göktürk yazılarına bənzəyir (Türkcəyə aid ilk mətnlər m.ö. VIII-V əsrlərə aid edilir. Bəydili dilinə məxsus sözlərdən biri «boz» (bod=xalq), «bozkır», «baraq», «ulaş», «əşirət», «beyğam (ğamsız), beynatıs (danışmayan), beyşara (biçarə), beypilavuz (ağzı bozuk) sözləridir.

Beləliklə, müxtəlif mənbələr bəydililərin də bizim babalarımız olduğunu və tarixinin çox-çox qədimlərə dayandığını söyləməkdədir. Onların mədəniyyətləri, adət-ənənələri nə qədər qədimə gedib çıxır, indi Türkiyədə, Azər-baycanda və digər ərazilərdə yaşayan bəydi-lilərin nə qədər zəngin bir boy olduğunu sübut edir.

Bəydlililər belə bir fikri də əski dönəmlərdə söyləmişlər: «Biz türklər, otaq qurub içində yaşayarkən çox boylar qaya qovuqlarında, mağaralarda yaşamışlar. Biz özümüzə paltar toxuyarkən, geyərkən çox boylar ağac yarpaqlarına bürünmüşlər, ötrünmüşlər. Qopuzla şarkı çalıb oynayarkən çox boy musiqidən xəbərsiz olmuşlar. Pendir düzəldib kımız içərkən çox boy süddən yararlamağı daha bilmirdilər. Çox gözəl ənənələrlə qonağı ağırlayarkən çox boy bu ənənələrə hələ alışmamışdı...» (Azərbaycan dilinə tərcümə)

## MƏNBƏLƏR

*1. Divanü Luğat it-Türk tercümesi (çeviren: Besim Atalay). 1.3. baskı. Türk Tarih Kurumu Basımevi. Ankara, 1992*

*2. Ataniyazov Soltanşa. Şecere (Türkmenin nesil daraqtı - Türkmen etnonimlerinden oçerk-ler). «Turan-ı» neşiryatı, Aşqabat, 1992*

*3. Tapper Richard. Frontier nomad sof İran: a political and social history of the Shahseven. Cambridge University Press, 1997*

*4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti . 2 cilddə. I cild, Bakı, «Şərq-Qərb», 2007*

*5. Maxpirov V.U. Drevnetörkskaə onomas-tika (İmena sobstvennıe v «Divanu luqat-it turk» Maxmuda Kaşqarskoqo). Alma-Ata, «Qılım», 1990*

*6. Faruk Sümər. Oğuzlar (türkmənlər). Ta-rixləri. Boy təşkilatı. Dastanları. Bakı, MVM,*